*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 iyul 2016-cı il № 55 (2070) Qiymәti 25 qəpik


## Prezidentin Mətbuat Xidmətinin məlumatı

***İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.***

Dövlətimizin başçısı Türkiyədə hərbi çevriliş cəhdini qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan xalqı və dövləti həmişə olduğu kimi, Türkiyə xalqı və dövlətinin yanındadır. Prezident İlham Əliyev çevriliş cəhdinin qarşısının alınması nəticəsində həlak olanların ailə üzvlərinə və Türkiyə Prezidentinə başsağlığı verib, yaralılara şəfa arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti əminliyini ifadə edib ki, Türkiyəni bundan sonra da heç bir qüvvə inkişaf və demokratiya yolundan döndərə bilməz.

Prezident Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin və Azərbaycan xalqının göstərdiyi qardaşlıq mövqeyini yüksək qiymətləndirərək bildirib ki, Türkiyə rəhbərliyi ölkədə vəziyyəti normallaşdırmaq üçün bütün lazımi tədbirləri görməkdədir.

## “Azərbaycan idmanının inkişafı bizim ümumi inkişafımızın göstəricisidir”

***AZƏRTAC xəbər verir ki, bu fikri iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimindəki nitqində deyib.***

Olimpiya Oyunlarında Azərbaycanın 56 idmançısının mübarizə aparacağını vurğulayan dövlətimizin başçısı bildirib ki, bu, ötən Olimpiadadakından çoxdur. İdmançılarımızın Olimpiadada ölkəmizi ləyaqətlə təmsil edəcəyinə əminliyini bildirən Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, son dörd il ərzində idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında bizi sevindirib, ölkəmizin şöhrətini ucaldıb və Vətənə böyük qələbələrlə qayıdıblar.

Prezident İlham Əliyev deyib ki, Azərbaycan idman dövlətidir. Bunu dünyanın bütün idman ictimaiyyəti bilir, qəbul edir. Azərbaycanda idman, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycan cəmiyyətində önəmli bir ictimai amilə çevirib. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var, idmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançıların uğurları və onlara göstərilən dövlət qayğısıdır.

Ali Baş Komandan İlham ƏLİYEV:

*Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu, bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir.*

## Ucalıq səninindir



*Hər əsgərin döyüş hazırlığında komandirin rolu əvəzsizdir. Əsgər öyrənir, komandir öyrədir. Öyrənən də, öyrədən də ordunun qüdrəti, yenilməzliyi üçün öyrədir, öyrənir... Əsgər öyrənə-öyrənə püxtələşir. Belə əsgərlərdən biri də İsmayıl Şıxıyevdir. Hərbi xidmət dövründə qazandığı bilik və bacarıqlarına görə komandirlərinə minnətdarlığını bildirir. Vətənin keşiyində dayanan əsgərin məğrur baxışları deyir ki, torpaqlarımızı işğaldan azad edəcəyik. Ali Baş Komandanın əmrinə müntəzirik. Həmişə sayıqlığı ilə tanınan İsmayıl bu gün də döyüş növbəsində aramsız müşahidə aparır.*

Uca dağlar qoynunda bu əsgərlər təmas xəttini etibarlı qoruyur. Qışın şaxtasında, sazağında da, yaz-payız aylarında da yağışında, dumanında da əsgərlər daim sayıqdırlar. Heç bir ekstremal şərait onların xidmətinə təsir göstərə bilməz.

Zabit Natiq Rəsulov bildirir ki, dağlıq ərazidə hərəkət etmək çətindir. “Amma əsgərlərimiz bu cür şəraitə vərdiş etdiyindən bunun ağırlığını hiss etmirlər. Hər cür çətinliyə sinə gərirlər.”

O, İsmayıl Şıxıyevin mənən zəngin əsgər olduğunu deyir. Komandirin tabeliyində olan əsgərə bu qədər ehtiramı, sevgisi bir həqiqəti yada salır: ordunun gücü onun əsgərinin döyüş hazırlığından, döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlığından asılıdır. İsmayıl Şıxıyev bu keyfiyyətlərə malik əsgər olduğu üçün sevilir...

Əsgərlə xidmət yerində, müşahidə postunda görüşdüm. O, düşmənlə təmas xəttini bir an da nəzarətsiz qoymur. - Düşməni vaxtında aşkar edib məhv etmək başlıca vəzifəmizdir, - deyir əsgər.

Cəbhədə dəfələrlə atəşkəs rejimini pozmağa cəhd edən düşmən hər dəfə cəsur döyüşçülərimizin layiqli cavabı ilə qarşılaşır. Aprel döyüşləri də bunu bir daha təsdiq etdi.

...Vətən torpağının ucalığında xidmət edən ucalığın nə olduğunu daha mükəmməl bilir...

Əsgər İsmayıl Şıxıyev Vətəni ucalıqdan qoruyur...

Bu ucalıq səninindir, əsgər!

Burada Vətənin ucalığını qoruyursan, ucalığı qoruyursan! Sən Azərbaycan əsgərisən!..

**"Azərbaycan Ordusu"**

# Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı gücləndirilir

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ilə görüşüb





***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və hərbi hissə komandirlərinin, xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri ilə keçirilən təlim-metodik toplantıda Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov iştirak edib.***

General-polkovnik N.Sadıkov iştirakçıları Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayaraq mənəvi-psixoloji hazırlıq işinin yüksək səviyyədə təşkili, tabelikdə olan hərbi qulluqçuların milli-mənəvi dəyərlər, vətənpərvərlik ruhunda tərbiyə edilməsi, eləcə də şəxsi heyətin təhlükəsizlik qaydalarına əməl etməsi və digər vacib məsələlərlə bağlı fikirlərini onların diqqətinə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğıdan söz açan Baş Qərargah rəisi xeyli sayda yeni hərbi şəhərciklərin istifadəyə verilməsini, ordunun arsenalına müasir döyüş vasitələri, silah-sursat və yeni avadanlıqların daxil edilməsini də xüsusi vurğulayıb.

Döyüş və mənəvi-psixoloji hazırlıq işinin daha da gücləndirilməsi ilə bağlı Müdafiə nazirinin tapşırıqlarını şəxsi heyətə çatdıran Baş Qərargah rəisi Silahlı Qüvvələrdə şəxsi heyətin rifahı naminə həyata keçirilən islahatlar və quruculuq işlərinin davam etdiriləcəyini də qeyd edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Horadiz kəndi yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***18 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 15 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***19 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 11 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Mərzili kəndi yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Vətənpərvər gizir

*Aprel döyüşlərinin közü hələ sönməyib. Ordumuz bu hadisələrdə böyük uğurlar qazandı. Əsgərlərimiz döyüş əmrini can-başla yerinə yetirdi və işğalda olan torpaqlarımızın bir hissəsini azad etdilər. Erməni tapdağı altında olan ərazinin bir qarışının belə azad edilməsi ordumuzun qələbəsi, xalqımızın uğurudur.*



...Kapitan Elməddin İmanovla son döyüşlərin getdiyi mövqelərdəyik. Zabit qarşımızdakı təpəni nişan verir: - Bu mövqelərin düşməndən azad edilməsi asan olmadı, - deyir. - Burada gərgin döyüşlər getdi. Hər bir döyüşçü silahından lazımınca istifadə etdi. Düşmənə baş qaldırmağa aman vermədi. Ermənilərin səngərlərinə ayaq basanda sevincimizin həddi-hüdudu yox idi.

Zabit deyir ki, düşmən bu mövqeləri geri almaq üçün əks-hücumlar təşkil etdi, amma onların bütün cəhdlərinin qarşısı qətiyyətlə alındı.

Aprel döyüşlərinin uğurlarından hələ çox danışılacaq. Çünki burada xidməti olan hər bir döyüşçünün ürəyi doludu. Zaman keçdikcə həmin döyüşçülərlə görüşüb onların fəaliyyətləri ilə yaxından tanış oluruq. Kapitan E.İmanov bölüyün baş çavuşu gizir Ramin İbrahimovun da belə hərbçilərdən biri olduğunu bildirdi. O əlavə etdi ki Raminin döyüşdə vəzifəsi şəxsi heyəti sursatla, ərzaqla və başqa zəruri döyüş avadanlıqlarıyla təmin etmək idi və o bu işlərin öhdəsindən bacarıqla gəldi. Onun fəaliyyəti komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

Gizir Ramin İbrahimovla bölmənin dayaq məntəqəsində görüşdüm. O, hərb işini son dərəcə sevən bir şəxsdir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunu bitirib. 10 ildən artıqdır ki, cəbhə bölgəsində xidmət edir.

Sonuncu döyüşlərdən danışan gizir R.İbrahimov deyir ki, ən böyük arzusu erməni tapdağı altında olan torpaqlarımızın azad olunduğu günü görməkdir. Bunun üçün bir hərbçi olaraq üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə hazırdı. O, apreldəki döyüşləri belə xatırlayır:

- Düşmən əvvəlki mövqelərimizi tez-tez atəşə tuturdu. Çünki əsas yüksəklik onların nəzarətində idi. Sonuncu döyüşlər zamanı ermənilər mövqelərimizə bütün növ silahlardan atəş açdı. Əvvəllər cavab atəşindən sonra düşmən dərhal susardı. Bu dəfə isə şərait tam fərqli oldu. Yağı susmaq bilmirdi, hətta yaxınlıqdakı dinc əhalini artilleriya silahlarından atəşə məruz qoyurdu. Sonra biz düşmən üzərinə hücuma keçmək əmri aldıq.

Bəli, kimliyindən və vəzifəsindən asılı olmayaraq, əyninə hərbi forma geyinən hərbi qulluqçu həm də peşəkar döyüşçü olmalıdır. Onlar nəyə qadir olduqlarını döyüş meydanında təsdiq edirlər.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

Ön xətdən reportaj

# "Gücümüz birliyimizdədir"

*Silahlı Qüvvələrin yaranmasının 95 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi paradda ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışında bəyan etmişdi: "Sirr deyildir ki, Azərbaycan başqa sahələri inkişaf etdirdiyi kimi, hərbi sahəyə də böyük diqqət göstərir. Bu, bizim təbii yanaşmamızdır. Çünki Azərbaycan müharibə şəraitindədir. Müharibə bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır. Biz elə etməliyik ki, istənilən anda torpaqlarımızı hərbi yolla azad edə biləк." Aprelin əvvəllərində erməni hərbi qüvvələrinin silahlı təxribatlarına cavab olaraq ordumuzun əks-hücum əməliyyatları təsdiq etdi ki, Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə hər an hazırdır.*



...Dağlardan əsən meh aradakı yaşıllıqları xəfifcə titrədir, ətrafa sərinlik gətirirdi. Günəş şəfəqlərini hər tərəfə səpələmişdi. Havanın günortaya doğru isti və bürkülü olacağı açıq-aydın hiss edilirdi...

Düşmənlə çox yaxın məsafədə - Tovuz rayonunda yerləşən, dağlarla əhatələnmiş hərbi hissənin ərazisindəyik.

Zabit Daşqın Bənnayev söhbətində iyunun 26-da 98 illiyini qeyd etdiyimiz Silahlı Qüvvələr Günü keçirilən bayram tədbirlərindən və burada ictimaiyyət nümayəndələrinin fəal iştirakından danışdı: "Rayon camaatı - ağsaqqaldan tutmuş uşağa kimi hər kəs bayram əhval-ruhiyyəsində idi. Xalqla ordunun monolit birliyi budur. O qələbəliyi görüb qürur hissi keçirdim.

Düşmən hələ də aprel döyüşlərinin ağır psixoloji təsirindən çıxa bilmir. Ermənilər yaxşı bilməlidirlər ki, işğal altında saxladıqları torpaqlarımızdan gec-tez çıxmalıdırlar. Biz Ali Baş Komandanın əmri ilə düşmən işğalında olan tarixi torpaqlarımızı azad etməyə hər an hazırıq."

Ordumuzun aprel zəfərindən ruhlanan xalqımızın oğul və qızları Ali Baş Komandana məktublar ünvanlayıb, onun ətrafında sıx birləşərək hər zaman yanında olacaqlarını ifadə edirdilər.

Tovuz rayonu, Aşağı Quşçu kəndinin sakini İlqar Mansırlının məktubunda düşmənin şəhidlərimizin qisasını almaq arzusu ifadə edilib. Həmin məktubdan bəzi məqamları



xatırlayıram: "Cənab Ali Baş Komandan! Biz sizin əmrinizi gözləyirik ki, düşmənə daha ağır zərbələr endirək. Düşmən bizim gücümüzü yaxşı bilir. Ermənilər təşviş içindədirlər. Bizim gücümüz birliyimizdə və milli kökümüzə bağlılığımızdadır..."

Müdriklərimizin dediyi "El gücü, sel gücü", "El bir olsa, dağ oynadar yerindən" kəlamlarını xatırlayıram.

Zabit Murad Muradov şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarının daim artırıldığını qeyd etdi:

- Onlara müasir ordumuzun qurucusu, ulu öndər Heydər Əliyev irsini öyrədir, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğıdan danışır, əlavə bilgilər çatdırır, ordu rəhbərliyinin cəbhə bölgələrində tez-tez şəxsi heyətlə görüşməsini, söhbətlər aparmasını əks etdirən video görüntüləri nümayiş etdiririk.

Hər dəfə cəbhə bölgəsinə ezamiyyətə gedəndə Vətənimizin müdafiəsində dayanan əsgər və zabitlərimizlə görüşüb, onların arzularını, istəklərini qələmə alırıq. Vətənimizin cəsur oğulları mövqelərimizə hücum etmək istəyən erməni işğalçılarını dəqiq atəş zərbələri ilə geri oturdurlar.

Maşın zirvələrə doğru istiqamət götürür. Yamyaşıl bağça-bağlar, qalın-seyrək meşələr, dağlıq ərazilər, Vətən torpağına bəxş edilmiş bütün gözəlliklər qəlbimizi oxşayır.

- İllərdir təcavüzkar ermənilər bu yerlərin sakitliyini pozub rayonun sərhəd kəndlərini atəş altında saxlamağa cəhd göstərirlər. Dinc əhaliyə atəş açmaqdan belə çəkinmirlər, - bizi müşayiət edən zabit Emin Vəliyev dedi.

Zirvəsi əlçatmaz olan dağlarda torpaqlarımızı qoruyanların xidmət etdikləri ön mövqelərdəyik...

Dağlıq ərazidə şəxsi heyət üçün hər cür məişət şəraiti yaradılıb: əsgər yataqxanası, yeməkxana, ictimai-siyasi hazırlıq otağı və s. səliqə-sahmanı ilə göz oxşayır.

Səngər boyu irəliləyirik. Əsgərlərimiz müşahidə məntəqəsində döyüş növbəsi aparırlar. Fərəh hissi keçiririk.

Taqım komandiri baş leytenant Babək Qasımov Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda doğulub boya-başa çatıb.

"Kəngərli tanınmış sərkərdə Naxçıvanskilərin nəslinin adına əbədiləşdirilib, - deyə gənc zabit söhbətə başlayır. - Kiçik yaşlarımdan seçmişəm hərb sənətini. Əvvəlcə Heydər Əliyev adına Hərbi Liseydə, sonra Ali Hərbi Məktəbdə təhsil almışam. Arzuladığım hərb peşəsinin sirlərinə yiyələnmişəm. Hazırda ön xətdə xidmət edirəm. Əsgərlərimlə qürurlanıram. Bacarıqlı, möhkəm iradəyə malik gənclərdir. Hər birini kiçik qardaşım hesab edirəm. Ailədə də belə olur: böyük qardaş kiçik qardaşına dost kimi baxır, onu özünə arxa-dayaq bilir. Mənim fikrimcə, xidmətdə də elə olmalıdır. Şuşamızı, Laçınımızı, Xocalımızı, işğalda olan bütün tarixi torpaqlarımızı birlikdə azad etməyə hər an hazırıq."



Söhbətimi gənc zabit Nurlan Səfərovla davam etdirirəm.

3 ildir ki, taqım komandiri təyin olunub. Özü də könüllü olaraq ön xətdə xidmətə başlayıb. O, Azərbaycan Müəllimlər İnstitutunun tarix və coğrafiya fakültəsində təhsil alıb. Əslən Qubadlı rayonunun Gürcülü kəndindəndir. Görmədiyi elinə, obasına, ata-baba yurduna çox bağlı olduğunu deyir.

"Sumqayıt şəhərində doğulub böyümüşəm. Ata-anam, qohum-əqrəbam, doğma yurd yerlərinə dönəcəkləri günü səbirsizliklə gözləyirlər. Biz əcdadlarımızın uyuduğu o müqəddəs torpaqlarımıza mütləq qayıdacağıq. Əmim Alı Səfərov Qarabağ müharibəsi iştirakçısıdır. Onun yolunu mən davam etdirirəm. Erməni işğalçılarının ayaqları torpaqlarımızdan çəkilməyənədək bu silahı yerə qoyan deyiləm."

Əsgər Mehman Şirinov aprel döyüşlərini xatırladaraq deyir ki, o qələbə Azərbaycan Ordusunun gücünün təsdiqi oldu. "Mən fəxr edirəm ki, belə dövlətin vətəndaşı, belə ordunun əsgəriyəm..."

Əsgər Mehdi Əbilov Hacıqabul rayonundandır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kimya texnologiyası fakültəsini bitirib. Silahının taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl bilir.

Əsgər Azər Yaqubov isə Cəlilabad rayonunda anadan olub. Azərbaycan Pedaqoji Universtetinin pedaqogika və psixologiya fakültəsində təhsil alıb. O da əsgər yoldaşları kimi, təlimlərdə bacarıq nümayiş etdirib, hərbi vərdişlərə yiyələnib.

Azər də, Mehdi də bir neçə gündən sonra hərbi xidmətlərini başa vurub evlərinə qayıtmalı idilər. Komandirlərindən, əsgər yoldaşlarından ötrü darıxacaqlarını deyirlər...

Əsgərlərdən Səyyad Adıgözəlov, Sakit Abbasov, Fərid Həsənli bildirdilər ki, səngərdə yaranan dostluq ömürlükdür. Hərbi xidmətin çətin günlərini bir yerdə keçərək möhkəmləniblər. İçdikləri Vətən andına sadiq qalıb onu yağı düşməndən qoruyacaqlarına söz veriblər...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

# "Azərbaycan Bayrağı" ordenli şəhid Şahlar Allahverdiyevin barelyefinin açılışı olub

**Tərtər rayonu Sarov kəndində respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuş "Azərbaycan Bayrağı" ordenli Şahlar Allahverdiyevin barelyefinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyəti nümayəndələrinin, şəhidin ailə üzvlərinin və döyüş yoldaşlarının iştirakı ilə keçirilən mərasimdə torpaqlarımız uğrunda həlak olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov şəhidin mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, Tərtərdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün iki 16, bir 24, bir 54 mənzilli yaşayış binaları, həmçinin fərdi evlər tikilib istifadəyə verilib. Onlarla əlil avtomobil və əlil arabası ilə təmin olunub. Tərtər şəhərinin küçələrinə Azərbaycanın Milli qəhrəmanları Vəzir Orucovun, Mübariz İbrahimovun, "Azərbaycan Bayrağı" ordenli Mehrac Mahmudovun, İlqar Həsənovun adları verilib.




Şahlar Allahverdiyevin atası Mənsim Allahverdiyev, keçmiş döyüşçülər tədbirdə çıxış edərək, Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra Şahlar Allahverdiyevin barelyefinin üzərindən ağ örtük götürülüb.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə ediblər

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iyulun 15-də azərbaycanlı həmkarı Elmar Məmmədyarov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdən sonra keçirilən mətbuat konfransında söhbət zamanı müzakirə olunan mövzular barədə məlumat verən Elmar Məmmədyarov əsasən, siyasi əməkdaşlıq, təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri ətrafında fikir mübadiləsinin aparıldığını bildirib. Həmkarına Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlar prosesi barədə məlumat verdiyini vurğulayan nazir E.Məmmədyarov deyib ki, Türkiyə regionun qabaqcıl və ATƏT-in Minsk Qrupunun üzv ölkəsi kimi, bu münaqişənin nizamlanması ətrafındakı hadisələr barədə məlumatlı olmalıdır.

M.Çavuşoğlu Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu qeyd edib. O, Türkiyə-Rusiya münasibətlərinin normallaşdırılmasında roluna görə Azərbaycana bir daha təşəkkürünü bildirib.

# "Azərbaycanımızdan həyatı öyrəndim"



*Cahangir Şərbətov böyük bir ailənin sonuncu övladıdır. Cəlilabad rayonu Ocaqlı kəndindəki 1 nömrəli orta məktəbi bitirib və böyük qardaşı Rahib kimi pilot olmaq istəyi onu 1996-cı ildə Uçuş Hazırlığı Təlim Mərkəzinə gətirib. Cahangir "İl-76" hərbi-nəqliyyat təyyarəsi ilə ilk uçuşunu həyata keçirib. Öyrənmək həvəsi səngiməyib, sonralar "Mi-17" döyüş-nəqliyyat helikopterini də idarə etməyi öyrənib.*

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində bir müddət müəllim işlədikdən sonra silsilə rəisi təyin olunub. Hazırda Hərbi Hava Qüvvələri fakültəsinin uçuş hazırlığı kafedrası rəisinin müavini vəzifəsində xidmət edir. Mayor Cahangir Şərbətovla iştirak etdiyimiz təlimlər zamanı tez-tez rastlaşırdıq. Ana dilimizdə danışarkən öz soykökümüzü əks etdirən səs tembri, İngilis dilində isə tam bir amerikan ləhcəsi ilə danışır...

## "Qaqarin olmaq istəyirdim"

Pilot olmaq həvəsi Cahangiri uşaqlıqdan "yaxalayıb", qardaşı Rahibin təyyarəçi olması onu da ruhlandırıb. "Mənimçün ən qüdrətli insan Yuri Qaqarin, bir də Rahib idi. Onların xoşbəxtliyinə - birinin kosmonavt, digərinin təyyarəçi olmasına həsəd aparırdım. Qaqarin olmaq istəyirdim. Təyyarəçi oldum..." - deyir təcrübəli pilot.

## "Allah məni Vətənimdən ayırmasın"

"İL-76 ilə bir çox ölkələrə səyahət edən Cahangir hər yerdən bir şey, Azərbaycandan isə həyatı öyrəndiyini deyir. Dünyanı gəzsən də, Vətənində tapdığın rahatlıq sözlə ifadə ediləsi deyil", - deyə söhbətinə davam edir. "Bir şeyi yaxşı bilirəm ki, hər kəs ana torpağını çox sevir. Vətəni qorumaq hər bir vətəndaşın, xüsusilə hərbçinin müqəddəs vəzifəsidir. Hər birimizin döyüş hazırlığı, nizam-intizamı Azərbaycan Ordusunun güc və qüdrəti üçündü. Mən də bu güclü ordunun nümayəndəsi, Azərbaycan Respublikasının vətəndaşıyam. Kim oluramsa, təki Allah məni Vətənimdən ayırmasın."

## Nə qədər çox təlim, o qədər çox təcrübə...

Cahangir Şərbətov təlimlərdə mütəmadi iştirak edir, öyrəndiklərini öz tabeliyində olanlarla bölüşmək üçün qeydlər aparır. Onun sözlərinə görə, çox təlim, o qədər çox təcrübə və bilik deməkdir. Təlimlər zamanı şərti döyüşün iştirakçısı olursan.

Azərbaycan Ordusunun özünəməxsus döyüş taktikası var. Ancaq biz beynəlxalq təlimlərdə NATO sistemini öyrənirik. Öyrəndiklərimizi tətbiq etməyə çalışırıq. 90-cı illərin ortalarından başlayaraq Azərbaycan və NATO arasında sıx və səmərəli əməkdaşlığın yaradılması Silahlı Qüvvələrimizin təkmilləşdirilməsini, müasir standartlara uyğunlaşdırılmasını təmin etdi. Ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulub. 2008-ci ilin sonundan bu əməliyyat planının ikinci mərhələsi başlanıb. Hər il minlərlə Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edir, ən son hərbi yenilikləri mənimsəyir.

"Beynəlxalq təlimlər şəxsi heyətin döyüş şəraitinə uyğunlaşdırılması baxımından çox önəmlidir. Sürətinə, çəkisinə, yükgötürmə, silahdan istifadəetmə qabiliyyətinə görə bir-birindən fərqlənirlər. Əməliyyat dili ingiliscə olsa da, fərqli millətlərdən olan pilotların hər birinin ingilis dilini bilmə səviyyəsi də fərqlidi. Lakin bu fərqliliyə baxmayaraq qrup halında əməliyyata getmisənsə, vəziyyəti qiymətləndirməli və əməliyyatı düzgün yerinə yetirməlisən...

## "Geyib əsgər paltarını, silahlandı qəhrəman"

Vətən sevgisi ən ülvi hiss, torpağın, Vətənin müdafiəsi ən müqəddəs vəzifədir. Peşəsinə ürəkdən bağlı olan Cahangir gənclərin Vətənə sədaqət və milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunmasında təkcə dövlət strukturlarının deyil, bütövlükdə cəmiyyətin də üzərinə məsuliyyət düşdüyünü deyir. "Ölkəmizin müharibə şəraitində olduğu bir dövrdə cəmiyyətin bütün təbəqələri - valideynlər, ağsaqqallar, ziyalılar gənc nəslin vətənpərvərlik tərbiyəsinə önəm verməlidirlər. Unutmaq olmaz ki, bugünkü gənc nəslin nümayəndələrinə sabah Vətənimizin müdafiəsi və torpaqlarımızın işğaldan azad edilməsi kimi mühüm vəzifə etibar olunacaq."

Səməd Vurğunun "Ananın öyüdü" şeirinin ruhu:

*Geyib əsgər paltarını,*
*silahlandı qəhrəman,*
*Onun polad sinəsinə*
*sığışmadı ürəyi*

türk şeiri Mehmet Akif Ersoyun İstiqlal marşının ruhu kimidir:

*Kükremiş sel gibiyim,*
*bendimi çiğner, aşarım,*
*Yırtarım dağları, enginlere*
*sığmam, taşarım.*



Hansı düşmən güclü ordumuzun qarşısında tab gətirə bilər axı? Mübarizin, Samidin, bizim şəhid təyyarəçilərimizin qabağında kimdi onlar? Hər biri gözlərini qırpmadan getdilər döyüşə.

Hər bir insan vətənpərvər olmalıdı. Balalarını da bu ruhda yetişdirməlidir...

İnsan ömrü boyu öyrənə-öyrənə yaşayır, öyrəndiklərini də başqalarına aşılamağa can atır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müəllimi olan təcrübəli zabit kursantlarına demək istəyir ki, yüksək səviyyədə təhsil öz bəhrəsini mütləq verəcək...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Rezidentura və Tibb Heyətinin Təkmilləşdirmə kursunun rəisi tibb xidməti polkovniki Çingiz Bayram oğlu Əlləzova Azərbaycan Respublikası Silahlı Qüvvələrində tibb xidmətinin yaranmasında və şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında səmərəli fəaliyyətinə görə "Əməkdar həkim" fəxri adı verilib.*



# Həkimlik yaşatmaq deməkdir

Hər kəs ömür payını bir cür yaşayır. Çingiz həkimin də həyata baxışı, dünyaduyumu, daxili aləmi və gördüyü işlərlə daha yaxından tanış olmaq istədik. Bu istəkdə saygı da vardı, ehtiram da; onunla görüşüb kəlmələşdim.

Çingiz Bayram oğlu Əlləzov 1966-cı ildə Qərbi Azərbaycanın Kalinino rayonunun Qızıl Şəfəq kəndində anadan olub. 1973-1983-cü illərdə kənd orta məktəbini qızıl medalla bitirib. Həmin il Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1989-cu ildə institutu fərqlənmə diplomu ilə bitirib. Elə həmin il Eksperimental və Klinik Cərrahiyyə İnstitutunda əmək fəaliyyətinə başlayıb. 1990-cı ildən Sovet ordusunun Bakı Qarnizonu Hospitalında təxirəsalınmaz cərrahiyyə şöbəsində ordinator vəzifəsinə təyin edilib. Respublika Neyrocərrahlıq Xəstəxanasında ixtisaslaşma və Leninqrad Hərbi Tibb Akademiyasında təkmilləşmə kursu keçib. 1992-ci ildə, ölkəmiz müharibəyə cəlb olunduğu dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılıb və Mərkəzi Hərbi Hospitalın neyrocərrahiyyə şöbəsində ordinator kimi xidmətə başlayıb. 1994-1995-ci illərdə İstanbul Universiteti Cərrahpaşa tibb fakültəsində, sonrakı illərdə isə Gülhanə Tibb Akademiyasında təkmilləşmə kursu keçib. 1995-ci ildən 2015-ci ilə kimi Silahlı Qüvvələrin baş neyrocərrahı, Baş Klinik Hospitalın neyrocərrahiyyə şöbəsinin rəisi vəzifəsində xidmət edib. 2016-cı ilin əvvəlindən isə Hərbi Tibb Fakültəsində Rezidentura və Tibb Heyətinin Təkmilləşdirmə kursunun rəisi vəzifəsindədir.

## "Xeyirxahlıq peşəsi"

Həkim peşəsi ən nəcib və məsuliyyətli peşələrdən biridir. İnsanların sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı bilən həkimlərimiz şəfa bəxş etdikləri xəstələrinin qəlbində əbədi yaşayırlar. Peşə seçimindən söhbət düşəndə Çingiz həkim bildirdi ki, həkimlik onun uşaqlıq arzusu idi. Onda bu marağı ata qohumlarından biri yaradıb. Bu gün böyük təcrübəyə, yüksək həkim peşəkarlığına malik olan müsahibim idealı olan o adam haqqında ehtiramla danışdı: "Əsgərlikdə yeddi il feldşer işləmişdi, ali təhsili yox idi, amma böyük təcrübəsi vardı. Ona müraciət edənləri diqqətlə dinləyərdi, hərtərəfli düşünüb qərar verməyi xüsusiyyətləri ilə kənddə böyük nüfuz qazanmışdı. Daim deyərdi ki, həkimlik xeyirxahlıq peşəsidir. Son ümidini itirmək üzrə olan xəstənin gözlərindəki yaşam sevincinin sənə yaşatdığı hissi heç nə ilə əvəz etmək mümkün deyil. İnsanlara kömək etmək, ən çətin, ümidsiz anlarında onların əlindən tutub ayağa qaldırmaq istəyi məni də bu sənətə gətirdi."

Müstəqilliyimizin ilk illərində xalqımızın üzləşdiyi 20 Yanvar faciəsi Çingiz həkimin də düşüncələrini tərpədib. Hərb sənətinə olan sevgisi onu bu şəfa ocağına gətirib çıxarıb. Vətənimizin ağır günlərində torpaqlarımızı qoruyan oğulların sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı seçib. O günləri xatırlayan həkim deyir ki, çox çətin zaman idi. "Tibbi ləvazimatlar çatışmırdı. Lakin hər bir şəraitdə həkim özünü itirməməli, təmkinli, dözümlü olub xəstəyə doğması kimi yanaşmalı, sağalmasına ümid verməlidir. Bütün çatışmazlıqlara baxmayaraq, biz var gücümüzlə işləyirdik. Ötən illərlə müqayisədə ordumuzun sürətli inkişafı və qazandığı nailiyyətlər hərbi tibb sahəsinə də təsirsiz ötüşməyib. Müasir avadanlıqlar, diaqnostik aparatlar hərtərəfli müayinələrin aparılmasına imkan verir. Hətta səyyar hospitallarda həm cərrahi, həm də digər müayinə və müalicələr üçün hərtərəfli şərait mövcuddur. Hər an zabit və əsgərlərimizin sağlamlığının keşiyindəyik."



Yaxşı həkim olmaq üçün elm, bilik kifayət etmir, tibbi əxlaqi dəyərlərə də malik olmalısan - yüksək mənəvi dəyərlərə sahib olmayan şəxs heç zaman yaxşı həkim ola bilməz. Tibb xidməti polkovniki Çingiz Əlləzov da peşə şərəfini qoruyan və insanlığı əsas tutan həkimlərimizdəndir. Söhbətimiz zamanı ona müraciət edən xəstələrə mehriban, səmimi münasibəti diqqətimdən yayınmadı. Müxtəlif jurnallarda elmi məqalələri dərc olunan həkim ölkə daxilində və xaricində keçirilən bir çox konfranslarda iştirakından söz açaraq qeyd etdi ki, bu tədbirlər onların peşə hazırlığının formalaşmasına zəmin yaradır. Həkimlik daim öyrənməyi, təkmilləşməyi, müasir müalicə üsulları axtarmağı tələb edən bir peşədir.

## "Mən dünyada müəllim adından yüksək, şərəfli bir ad tanımıram"

Əməkdar həkim ümummilli liderimiz Heydər Əliyevin "Mən dünyada müəllim adından yüksək, şərəfli bir ad tanımıram" kəlamını xatırladı. "Müəllim öz ziyası, nuru ilə təkcə tələbələrinin yoluna deyil, bütün cəmiyyətə işıq saçmalıdır. Mən həyatda qazandığım bütün uğurlarıma, əldə etdiyim nailiyyətlərə görə müəllimlərimə minnətdaram. Rak Aleksey Vasilyeviçə, türk professorlar Cengiz Kudaya, Emin Özyurta, Əli Çətin Sarıoğluya, Murat Hancıya, Əngin Gönülə, Sərdar Qəhrəmana və Əli Şəhirlioğluna borcluyam."

Ümumiyyətlə, həkim sənətində müəllimlərin vəzifəsi təkcə fənni tədris etməklə, bilik verməklə bitmir. Onlar bunu həm də praktiki olaraq həyata keçirirlər.

- Rezidentlərə əlimdən gələn köməyi əsirgəmirəm, - deyir əməkdar həkim. - Mənə görə hər bir tələbə qiymətli bir xəzinə, gələcəkdə xalqımıza xeyir verəcək layiqli bir vətəndaşdır. Sabah məni onlar müalicə edəcək. Həkim nə vaxtsa öyrəndiyi biliklərlə kifayətlənməməli, daim öz üzərində işləməli, müasir dövrlə ayaqlaşmalı və səhiyyə inkişaf etdikcə öz təcrübəsini artırmalıdır.

Hərbi həkim olmaq ikiqat şərəfli və məsuliyyətlidir. Tələbələrinin qazandığı uğurları görən müəllimin çəkdiyi bütün əziyyətlər bir anda silinir, yerini xoş bir məmnunluq, sevinc hissi tutur.

## Unudulmayan xəstə

Çingiz həkim özünün əsl xoşbəxtliyini xəstələrini yenidən həyata qaytarmasında görür. Həkimin olum və ölüm arasında olan insanı yenidən həyata qaytardığı əməliyyatda keçirdiyi hisslərin ifadə olunmasında sözlər yetərsiz, qələm acizdir.

- Kiçik bir səhv, ehtiyatsızlıq böyük bir faciəyə yol aça bilər, - deyir tibb xidməti polkovniki. - Bunun üçün həkim tibb elminin sirlərinə mükəmməl yiyələnməli, müasir tibbi avadanlıqlarla işləməyi bacarmalı, ən əsası isə məsuliyyətli olmalıdır.

Həkim bir anlıq söhbətini kəsib baxışlarını uzaqlara dikdi. Sakit səslə 1992-ci ildə baş vermiş bir hadisəni xatırladı: "Şöbəyə huşsuz vəziyyətdə bir xəstə gətirdilər. Adı, soyadı, ümumiyyətlə, kimliyi haqqında heç bir məlumat yox idi. Mən onu ilkin müayinə etdim. Partlayış zamanı güclü travma almışdı. Beyin strukturlarında dəyişiklik var idi. Xəstə əlli üç gün süni tənəffüs aparatında qaldı. Koma vəziyyətindən üç aydan sonra çıxdı. Qardaşı onu beş ay sonra bədənindəki anadangəlmə xalından tanıdı..."

Yenidən həyata qayıdan xəstənin yaxınları həkimə necə minnətdarlıq edəcəklərini bilmirlər. Əsl həkimə isə bir insanın göz yaşlarına qərq olmuş yaşamaq sevinci, minnətdarlıq dolu baxışları, ailəsinin, övladlarının yerə-göyə sığmayan fərəhi bəsdir.

## Aprel hadisələri - psixoloji inqilab

Aprelin əvvəllərində düşmənin irimiqyaslı silahlı təxribatlarının qarşısının alınmasından və ordumuzun düşmən tapdağından azad etdiyi mühüm yüksəkliklərdən söhbət düşəndə isə həkimin sifətində bir təbəssüm yarandı. Aprel zəfərini cəmiyyət arasında psixoloji inqilab adlandıran həkim bildirdi ki, hərbçilərimiz xalqımıza illərdir həsrətində olduğu qələbə sevincini yaşatdılar. "Xalqımız öz ordusu, qorxubilməz oğulları ilə qürur duydu. Düzdür, bu hadisələr zamanı itkilərimiz də oldu. Amma tam səmimiyyətlə deyirəm: tibb ocaqlarına daxil olan bir yaralımız belə həyatını itirməyib. Ali Baş Komandanın hər bir əmrinə hazırıq. İnanıram ki, çox yaxınlarda, torpaqlarımızı işğaldan azad edəcək, Qələbə sevincini yaşayacağıq."

...Həkimlik hər şeydən əvvəl yaşatmaq deməkdir. Çingiz həkim Hippokrat adına da sədaqətlidir, Tanrı andına da.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "EurActiv" portalı Ermənistan-Azərbaycan münaqişəsi barədə yazır

Avropa İttifaqı ilə bağlı məsələləri işıqlandıran "EurActiv" xəbər portalında "Stratfor" Qlobal Strateji Təhlillər və Proqnozlaşdırma Mərkəzinin hazırladığı "Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən danışıqlar" adlı məqalə yayılıb. Məqalədə aprelin əvvəllərində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş verən hadisələrdən sonra danışıqlar prosesində müşahidə olunan canlanmadan bəhs edilir.

Yazıda təmas xəttində baş verən hadisələrdən sonra danışıqlar prosesinin sürətləndiyi, bir neçə gün əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı danışıqların hazırkı vəziyyətini müsbət qiymətləndirdiyi, rəsmi Moskvanın bu prosesdə ən vacib vasitəçi olduğu qeyd edilir, ümumiyyətlə, aprel hadisələrindən sonra münaqişənin yenidən beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çevrildiyi bildirilir.

Təhlilçilər məsələyə dair proqnozlarını təqdim edərək status-kvonun dəyişməyəcəyi təqdirdə danışıqların uzun müddət aparılmasının mümkün olmayacağını, aprel hadisələrinə hər şeydən əvvəl danışıqlar prosesində irəliləyişin olmaması amilinin təkan verdiyini, bir sözlə, münaqişənin həllində sözdən çox fəaliyyətin tələb olunduğunu vurğulayırlar.

# Palıd ömrü

*Hər məfhumun ifadə etdiyi məna çalarları var... Ömür ifadəsinin yozumu çoxdu... Ömür xalq üçün, millət üçün, dövlətçilik üçün yaşanılan aylardı, illərdi. Min illərdi belə olub, əbədiyyən belə də olacaq... Yaz-payız binəsinə gedəndə atam dəyəmizi palıd ağacına yaxın yerdə tikərdi. Maraqlananda "Palıdın xırman kölgəsi olur, oğlum", - deyərdi. "Həm də palıd müqəddəs ağacdı, bədxahlığı sevmir, qəlbitəmizlərin ağacıdı. Palıd ömrü yaşayanlara əməlisaleh deyilib. İstəyirəm palıd kimi böyüyəsiniz..." Palıd ömrü ifadəsi o vaxtlardan yaddaşımdadı...*



Abdulla Qurbani Şərurda gəlib dünyaya. Palıdlığı şərtləndirən xarakterlə böyüyüb - dözümlü, səbrli-təmkinli, iradəli. Palıd kimi bağlanıb torpağa. Torpağı sevib - Vətəni sevib. Həm də kimsənin sevə bilmədiyi kimi sevib. Elə sevib ki, ürəyi vətənləşib; ürəyinin gözləriylə baxıb dünyaya. Abdulla Novruz oğlu Qurbanovu Abdulla Qurbani edən bunlardır!..

Hələ orta məktəbdə oxuyanda çöldən tapdığı xışı məktəbə gətirəndə də, neçə yüz illərin o üzündə rəncbərin "qolunun zoru" olan bu xışı, yaşı bəlli olmayan sınıq bir küpü gələcək muzeyə eksponat eləyəndə də, bu haqda Firuz Mustafanın "Azərbaycan gəncləri" qəzetində "Sınıq küpün harayı" məqaləsi dərc olunanda da, hərbi xidmətdə olanda "Krasnaya Zvezda" qəzetində məqalələri dərc edilində də, Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsində təhsil alanda da, Şərur rayon Mədəniyyət şöbəsinin müdiri olanda da, beynəlxalq folklor festivallarının laureatı olanda da, ağır vaxtlarda orduya könüllü gələndə də, "Murovun qəm karvanı", "Ana, Murovdan gəlirəm", "Meşəli od içində", "Gəzdim Naxçıvanı mən səngərsəngər", "Şəhidlik dastanı", "Gültəkin qayası" ... kitablarını yazanda da, palıd ömrü yaşayıb şair Abdulla Qurbani, publisist Abdulla Qurbani, ssenarist, rejissor Abdulla Qurbani; bu gün bu ömrü polkovnik hərbi rütbəsində müdrikcəsinə yaşayır...

Silahlı Qüvvələrimizin ilk hərbi paradının aparıcısı oldu Abdulla Qurbani. Həmin anlarda gördüklərindən-təqdim etdiklərindən qürurlandı, televiziya tamaşaçılarını, radio dinləyicilərini də qürurlandırdı...

...Tufarqanlı Abbas dağları çənli-çisəkli görəndə "Duman, gəl get bu dağlardan..." deyib. Söylənilənlərə görə, duman çəkilib. Bu zəruri təsadüfü təbiətin şair sözünə ehtiramı bilmişəm. Nədən xatırladım bunu?

Xocavənddə Əməkdar İncəsənət Xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla kütləvi vətənpərvərlik bayramı keçirilirdi: "Qarabağa yaz gələcək." Göy üzü gah bozarır, gah qızarırdı; Xocavənddə yağış qoxusu vardı. Abdulla Qurbaninin rəhbərliyiylə tərtibat tamamlanmaq üzrəydi. Elə bil bu sənət fədaisi bayaqdan bəri havanın necəliyini hiss eləmirmiş. Qəflətən göy üzünə baxdı. Baxışlarını narahatlıq bürüdü. Tufarqanlı Abbas, Tufarqanlı Abbasın "Dağlar"ı düşdü yadıma. Və sanılı saniyələr ötüşüncə buludlar dağıldı... Bu, "Qarabağa yaz gələcək" inamına, bu inamın söykəndiyi palıd ömrü yaşayanlara - Azərbaycan əsgəri adını ömür yoluna bayraq edənə, Azərbaycan əsgərinə təbiətin xeyir-duasıydı sanki...

"Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri" deviziylə keçirilən kütləvi vətənpərvərlik tədbiri mahiyyəti etibarilə ordu ilə xalqın birliyinin təntənəsi hesab edilməlidir; ssenari müəllifi (və rejissor kimi) Abdulla Qurbani gördüyü, müşahidə etdiyi həqiqətləri bir tədbir müstəvisində təqdim etməyə nail oldu: xalq Prezidentinə inanır, inanır ki, Qarabağ problemini danışıqlar yolu ilə həll edəcək, qarşı tərəf bu danışıqlarda hesablaşmasa, son sözü Azərbaycan əsgəri deyəcək. Xalq son sözü deyəsi əsgərlərinə güvənir. Bilir ki, Azərbaycan əsgəri torpaqlarını işğaldan azad etməyə qadirdir. Bu inam az sonra - aprel döyüşlərində öz təsdiqini tapdı; vətənpərvərlik tədbirləri gerçəkliyə söykənən tədbirlərdir və onların mahiyyəti gerçəkliyin tarixləşdirilməsi üçündü. Xalq da, ordu da Ali Baş Komandanın hər bir əmrinə hazırdır!..

Zaman anlamında hərb tariximizin dünəninə də saygı milli-xəlqi ruhun yaşarılığı üçündü. Abdulla Qurbaninin ssenarilərində bu amil saygılarla, sevgilərlə əhatələnir. C.Naxçıvanskinin, S.Mehmandarovun, Ə.Şıxlinskinin yubiley tədbirləri, bu tədbirlərin kütləviliyi, sələf-xələf münasibətlərinin yaşarılığını bir tədbir miqyasında təmin edir və bu, gənclərin, yeniyetmələrin vətənpərvərlik duyğularının kükrəyişinə vəsilə (bəlkə də vasitə!) olur; Abdulla Qurbaninin ssenariləri, bir qayda olaraq, milli-xəlqi ruhdan gəlir.

...Söz duyana sirdaş olub, çətinə düşənə qardaş olub, əndişələrlə üzləşənə könüldaş, müharibədə döyüşçüyə səngərdaş. Abdulla Qurbaninin poeziyasının da, Abdulla Qurbaninin publisistikasının da rişələndiyi söz bu qüdrətdədi. "Ana, Murovdan gəlirəm", "Murovun qəm karvanı" kitablarını oxuyanda özünü döyüşlərin içində hiss edirsən: səngər qazırsan, döyüş növbəsi aparırsan, düşmənə güllə atırsan, döyüşün içindən yaralı çıxardırsan, döyüşürsən, nəfəsin üstündə olsa da, şəhidlərlə şəhid olursan...

Bu kitablar söz-söz, kəlmə-kəlmə, mətləb-mətləb ruhuna hopur...

Abdulla Qurbaninin ssenarisi ilə keçirilən kütləvi vətənpərvərlik tədbirlərinin hər biri ayrılıqda mükəmməl vətənsevərlik dərsidi, ümumilikdə vətənsevərlik düsturu.

Gədəbəydə keçirilən "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" tədbirinin mahiyyəti ordu ilə xalqın birliyinə hesablanmışdı; bu birlik vardı, bu birliyi möhkəmlətmək, onun dönməzliyini təmin etmək niyyətiydi bu tədbir. Bir müddətdən sonra - aprel döyüşlərində bu birliyin təntənəsini gördük. "Hər kənddən bir ağsaqqal, hər səngərdən bir əsgər" tədbirinin mənəvi təsirini unutmaq mümkünsüzdü; şair Abdulla Qurbaninin şeirləriylə, publisist Abdulla Qurbaninin kəlamlarıyla, rejissor Abdulla Qurbaninin quruluşuyla süslənən tədbir toplaşanlara, toplaşanların timsalında məmləkətə bir daha xatırlatdı ki, ordu xalqın, xalq ordunun dayağıdı (yeri gəlmişkən, Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən tədbirlərdən biri məhz bu devizlə təqdim olunub)...

Şəhidliyə ehtiram yaşam fəlsəfəmizin tərkib hissəsidi.

Şəhidlik, şəhidlər həm də sözlə yaşadıla-yaşadıla hər birimizin ömürdaşımız olub. Beyləqanda keçirilən teatrlaşdırılmış kütləvi vətənpərvərlik tədbirində şəhidlər ruh qiyafəsində göründü. Şəhid ruhlarının dedikləri çağırışçılara, əsgərlərə, veteranlara, uşaqlara, ümumən məmləkətə ünvanlanmışdı. Nə deyirdi şəhidlər? - sevin Vətəni, torpağı qoruyun, torpaqlarımızı işğaldan azad edin. Bu kəlmələr Abdulla Qurbaninin təxəyyülündən, düşüncələrindən, Vətən sevgisindən süzülüb gəlirdi, icraçısı şəhidlərin ruhuydu; bu tədbirdə Abdulla Qurbani palıd ömrü yaşamaqla şair olaraq, publisist, ssenarist olaraq, rejissor olaraq yaşarı ruhların ruh qardaşıydı...

Xalq şairi Məmməd Arazı Murovdağa apardı Abdulla Qurbani. O ucalıq neçə gün sözün ucalığına sığındı. O neçə gündə əsgərlər Məmməd Araz sözünün istisində isindilər. Şairlə Murovdağın o üzündə də kəlmələşmək niyyətiylə Murovdağın o üzünə şeirin işığından baxdılar. O görüş əsgərlərin ürəyini təlləndirmişdi. Əsgərlər bu biçim görüşə görə "dağı dağ üstə qoymağa da" hazırıydılar; onda palıd ömürlülər palıd ömürlülərin əhatəsində bir boy da dikəlmişdi. Onda Vətən Məmməd Araza da, Məmməd Araz şeirinin işığına yığışanlara da, bu ələdüşməz görüşün səbəbkarına da oğul deyirdi. Həm də qürurla deyirdi!..

İkiqat paralimpiya çempionu İlham Zəkiyev döyüşçü olub. 1994-cü ilin yanvarında Füzuli rayonunun Əbdürrəhmanlı kəndində döyüşdə ağır yaralanıb, gözlərinin işığını itirib. Abdulla Qurbani Murovdağda keçmiş döyüşçü İlham Zəkiyevi əsgərlərin görüşünə aparmaqla ordu sıralarından tərxis olunanlara da, yeniyetmələrə də, müxtəlif bölgələrdə xidmət edən əsgərlərə də, ... bir mətləb aşılayırdı: hər birimiz Vətən üçün bir əsgərik (bu devizlə ssenari müəllifi və rejissoru Abdulla Qurbani olan kütləvi vətənpərvərlik tədbiri keçirilib)...

Vətənsevərlik ifadəsinin məzmunun necə göz nuru bilməyəsən? - Abdulla Qurbani kütləvi vətənpərvərlik tədbirlərindən birində iştirakçılara (deməli, məmləkətə!) xitabən

*Bu Vətənin seli ilə*
*vətənləşək,*
*Tər çiçəyi, gülü ilə*
*vətənləşək,*
*Güllərinin ləçəyində*
*şehi ilə vətənləşək,*
*Yarpağına sığal çəkən*
*mehi ilə vətənləşək,*
*Şimşəyiylə, yağışıyla*
*vətənləşək,*
*Əsgərlərin baxışlyla*
*vətənləşək!.. -*

deyirdi. Bu, şair amalıydı, hərbçi-şair amalıydı, hərbçi-şair təmənnasıydı. Bu təmənna Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana aparacaq yola xeyir-duaydı. Bu təmənnanın ruhlara hopduğu aprel döyüşlərində təsdiqləndi...

...Ötən il Əməkdar İncəsənət Xadimi polkovnik Abdulla Qurbani "Vətən uğrunda" medalıyla təltif edildi. Abdulla Qurbani üçün bütün medallar dəyərlidi, çox dəyərlidi. O, bu təltifə medalın adında ehtiva olunan Vətən kəlməsinə görə qədərsiz sevinirdi; Vətənə xidmət edə-edə "Vətən uğrunda" medalıyla təltif olunması bu duyğusal, bu istedadlı, bu yorulmaz, bu qətiyyətli, bu vətənsevər zabitə qədərsiz könül xoşluğu vermişdi...

...Aprel döyüşlərinin nəticəsi kimi Lələtəpə işğaldan azad edilmişdi. Abdulla Qurbani də ordaydı, bu qədərsiz sevinci əsgərlərin əhatəsində yaşayırdı. Bu günü zaman anlamında dünənlərdən, görənlərdən biriydi Abdulla Qurbani...

Bu qələbə məmləkət boyu sevinc haləsinə dönmüşdü. Sevincdən camaatın ürəyi köksünə sığmırdı. Abdulla Qurbani bunu duyurdu, görürdü. Ağsaqqalların baxışlarında çırpınan istəyi də gördü və... "Gəlin", - dedi. "Qəbiristanlığa gedirik, rəhmətə gedənlərin ruhunu yad eləməyə..." getdilər. 23 il bu avaza, bu kəlamlara tamarzı qalan məkanda "Yasin" oxundu. Azərbaycan əsgərinin adından; Abdulla Qurbani həm də ənənələrin yaşarılığının cəfakeşidi...

O anlarda ağsaqqalların şükranlığı göy üzünün göylüyünə qarışmışdı. Lələtəpənin o tərəflərinin də belə bir sevinclə əhatələnəcəyinə inam vardı. Ağsaqqalların baxışlarında...

Əməkdar İncəsənət Xadimi polkovnik Abdulla Novruz oğlu Qurbanovun Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdünə layiq görülməsi Vətən üçün yaşanılan ömürə verilən yüksək dəyərdi...

Palıd ömrü ifadəsi, könlümə yatan ifadədi; torpağa bağlılığı, torpaq - Vətən sevgisini görürəm bu ifadənin apaydın işığında...

Əsgər ömrü palıd ömrü deməkdi...

Abdulla Qurbaniyə xitabən deyirik ki:

*Vətən - qibləgahın,*
*Vətənə görə,*
*Səngərlərdən gəlir*
*sənin səsin də.*
*Ürəyin üçrəngli*
*bayrağa dönür,*
*Palıd ömürlülər*
*əhatəsində!..*

**"Azərbaycan Ordusu"**

## 22 İyul Milli Mətbuat Günüdür

# Milli mətbuatımızın ilkin missiyası - maarifləndirmə

*Azərbaycanda milli mətbuatımızın yaradılmasından 146 il ötür. 1875-ci ilin 22 iyulunda xalqımızın ziyalı oğlu, böyük təbiətşünas alim Həsən bəy Zərdabi "Əkinçi" qəzeti ilə Azərbaycanın müstəqil milli mətbuatının əsasını qoydu. Əlbəttə, bu çox böyük tarixi hadisə idi. Azərbaycanda mövcud mürəkkəb ictimai-siyasi münasibətlərin məhsulu olaraq meydana çıxan "Əkinçi" qəzetinin yaradılmasında mühüm xidmətləri olmuş böyük alim Azərbaycan cəmiyyətinin güzgüsü olan bu mətbu janrında xalqımızın milli maraqlarını əsas götürürdü.*



Milli mətbuatımızın ilkin missiyası maarifləndirmə olmuşdur. "Əkinçi" qəzeti nəşrə başladığı vaxtda artıq dünyanın bir sıra xalqları da müxtəlif illərdə öz mətbuatlarını yaratmışdılar.

"Əkinçi" ilə başlayan milli mətbuatımız sonrakı mərhələdə "Ziya", "Kəşkül", "Kaspi" ilə zənginləşməyə başladı. Azərbaycan cəmiyyətinin yetişdirdiyi ən böyük mütəfəkkirlər, işıqlı insanlar bu qəzetlər vasitəsi ilə ölkəmizdə yeni ictimai fikir formalaşdırmaqla xalqı müasirliyə çağırırdı. Bir neçə ildən sonra bu sıraya "Həyat", "Açıq söz", "Azad söz" və nəhayət, "Azərbaycan" adlı qəzetlər də qoşuldu. Əlbəttə ki, o dövrün siyasi şərtləri altında qəzet buraxmaq çətin məsələ idi, bunun üçün fədakarlıq tələb edilirdi. Amma bütün çətinliklərə baxmayaraq, bu qəzetlər Azərbaycan xalqının millət kimi varlığının təzahürü olmaqla, millətin özünü ifadəsinin bir forması kimi meydana çıxmışdı. Beləliklə, 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşri ilə Azərbaycan mətbuatında yeni ənənələr, siyasi satiranın əsası qoyuldu. Bu bir növ, xalqla sadə dildə danışığa girməyin özünəməxsus forması, satirik yazılar və karikaturalar yaratmaqla mətbuatla cəmiyyətin birgə fəaliyyətinə nail olmaq idi. Biz bu problemləri o dövrün ziyalılarının dili ilə daha maraqlı nümunələrdə görə bilərik. Məsələn, H.Zərdabi məqalələrinin birində yazırdı ki, "çəkmə geyinməkdə bir günah yoxdur və hər kəs fikir eyləsə, görər ki, çəkmə geyinməklə insan müsəlmanlıqdan çıxmaz, amma bir şəxs başmaq yerinə çəkmə geyinəndə şüəralar onu həcv edir, mollalar ona minbərdən lənət oxuyur, əvamünnas (ərəb dilində adi xalq kütləsi, avam camaat deməkdir - L.H.) salam verməyir, xülasə, hamımız birləşib onu kafir hesab edib, o qədər incidirik ki, biçarə naəlac qalıb öz millətini atıb gedir, xaricilərə üz tutur ki, onun övladı onların içində böyüyüb tərəqqisinə daxil olur. Əlbəttə, belə də nə qədər səy edək ki, buğda bitsin, olmaz." Təkcə bu misalda o dövrün Azərbaycan cəmiyyətində addımbaşı rast gələnən problemləri görürük. Yəni, biz həmin dövrdə, sadəcə, təfəkkürdə, düşüncədə, elmdə və digər sahələrdəki tərəqqidən danışa bilmədiyimiz kimi, məişət müstəvisində də irəliləyişin cəmiyyət tərəfindən lənətlə qarşılandığının şahidi oluruq. Zərdabi çox dəqiqliklə izah edir ki, insanlar tərəqqiyə meyilli deyil. Çünki hesab edirlər ki, başmağı çıxarıb çəkmə geyinməklə insan müsəlmanlıqdan çıxır. Xoşagəlməz münasibətlər tərəqqi edən insanların ölkədən çıxıb getməsinə səbəb olur. Beləliklə, cəmiyyətdə ziyalı axını baş verir...

Bəs dahi Üzeyir bəy nə deyirdi?.. Yaşadığı dövrün hadisələrinə öz yanaşmasını izah edən dahi Üzeyir Hacıbəyov belə yazırdı: "Ey millət mücahidləri, yatmış millətin yaxasından yapışıb silkələyin ki, oyansın. Əgər əfradi millət öz cəhaləti bərəkətindən sizi dinləmək istəmirsə, siz ondan əl çəkməyiniz. Və o sözlərə müvafiq danlanmağa məcbur ediniz, sonra onların özü sizə minnətdar olacaqdır."

Gətirdiyimiz bu nümunədən də aydın görürük ki, Azərbaycan milli mətbuatı yarandığı ilk zamanlardan maarifləndirmə istiqamətində ciddi mübarizə aparıb.

Fəxarətlə deyə bilərik ki, milli mətbuatımız böyük mübarizə və inkişaf yolu keçərək, indiki mərhələyə gəlib çatıb. Həqiqətdir ki, Azərbaycan müstəqilliyini qazandıqdan sonra demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi.

Ulu öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində bir sıra maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə möhkəm zəmin yaranıb. Tarixi bir yol keçmiş milli mətbuatımız bu gün ölkədə söz azadlığının tribunasıdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Gənc zabitlərimiz

# Qələbəyə inamla

*Bu gün biz zabitlərin üzərinə böyük vəzifələr düşür, - mayor Mirəhməd Seyidov sözə başladı. - Ən başlıca vəzifəmiz torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Şəxsi heyətin döyüş hazırlığı nə qədər yüksək olarsa, biz bu mühüm vəzifəni tez bir zamanda yerinə yetirə bilərik. Bu gün tam inamla deyə bilərəm ki, zabit və əsgərlərimizin həm mənəvi-psixoloji, həm də döyüş hazırlığı yüksək səviyyədədir.*



Qısa söhbətdən sonra təlim keçən əsgərlərin yanına yollandıq. Gənc əsgərlər məşğələnin mövzusuna uyğun olaraq cəld hərəkətlər edir, silahları hədəflərə tuşlayırdılar. Elə ilk addımdan əsgərlərin cəldliyi, çevikliyi diqqətimi cəlb etdi. Hiss olunurdu ki, onlar silahların sirlərinə və döyüş vərdişlərinə mükəmməl yiyələniblər.

Bizi təlim meydanında taqım komandiri leytenant İlqar Məmmədov qarşıladı. Gənc zabit dedi ki, təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətə dərs və məşğələlər keçirik. "Hərbi bilikləri və döyüş vərdişləri xidmətdə ilk addımlarını atan əsgərlərə aşılanır. Xidmətə böyük məsuliyyət və diqqətlə yanaşdığımıza görə məqsədimizə nail oluruq. Hər mövzunu əsgərlərə yetərincə öyrətmək üçün məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Bir qayda olaraq əvvəlcə şəxsi heyətə nəzəri məşğələlər keçirik. Əsgərlər qazandıqları nəzəri bilikləri əməli məşğələlərdə sınaqdan çıxarırlar."

Taqım komandiri leytenant İlqar Məmmədov orduda xidmətə bu ilin əvvəlindən başlayıb. Gənc olmasına baxmayaraq, xidməti vəzifəsinin öhdəsindən bacarıqla gəlir.

Leytenant söhbətinin sonunda nümunəvi xidmət edən əsgərləri də unutmadı. Təcrübəli və bilikli əsgərlərdən İbrahim Məmmədov, Rəşid Feyzullayev, Əlisəfa Səfərov və Yeqamət Hacızadənin adlarını çəkdi. Onların xidmətlərindən razılıq etdi.

Gənc əsgərlərin məşğələsi öz axarı ilə davam edir. Leytenant İlqar Məmmədov onlara növbəti tapşırıq və əmrlərini verir. Əsgərlərin cəld hərəkətləri, inamlı addımları adamda xoş təəssüratlar yaradır...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### İstanbulda strateji əhəmiyyətli obyektlərə xüsusi təyinatlı polis qüvvələri yerləşdirilib



İstanbula 1800 nəfərlik xüsusi təyinatlı polis qüvvələri gətiriləcək, strateji əhəmiyyətli obyektlərdə yerləşdirilib.

İstanbul şəhər təhlükəsizlik xidmətinin rəisi Mustafa Çalışkan şəhər üzərində uçan helikopterlərin xəbərdarlıq etmədən vurulmasına dair əmr verib.

Təhlükəsizlik tədbirlərinin gücləndirilməsi çərçivəsində şəhərə zirehli texnika da yeridilib.

### Yunanıstan Türkiyəyə məxsus helikopteri geri qaytarıb



Yunanıstan ilə sərhəd xəttində yerləşən Dədəağac şəhərindəki aerodromda eniş edən, içərisində 8 qiyamçının olduğu helikopter ölkəyə geri gətirilib.

İkisi mayor, biri kapitan, beşi isə əsgər olan qiyamçılar Yunanıstandan sığınacaq istəmişdilər.

Yunanıstanın Baş naziri Aleksis Tsipras Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon danışığı zamanı bildirmişdi ki, qiyamçıların Türkiyəyə təhvil verilməsi üçün nə lazımdırsa ediləcək.

### Türkiyədə sayca 16-cı abidə UNESCO-nun dünya irsi siyahısına daxil edilib



Türkiyənin Qars vilayətində yerləşən Ani xarabalıqları qədim abidəsi UNESCO-nun dünya irsi siyahısına daxil edilib.

Anadolu Agentliyinin məlumatına görə, bu, qardaş ölkədən dünya irsi siyahısına daxil olan sayca 16-cı qədim abidədir.

### Yunanıstanda dəmir yolları özəlləşdirilib



Yunanıstan hökuməti milli dəmir yolları şirkətini - "Trainose"ni özəlləşdirib. "Trainose"nin yeni sahibi İtaliyanın dövlət dəmir yolları şirkəti olan "Ferrovie Dello State İtaliene"dir.

Ölkədə keçirilən etiraz aksiyalarına baxmayaraq, Yunanıstan Özəlləşdirmə Fondu 45 milyon avro dəyərindəki müqaviləni təsdiqləyib.

Yunanıstanda özəlləşdirmənin aparılması beynəlxalq kreditorlar tərəfindən qoyulan tələblərin bir hissəsidir.

### Argentinada yeni dinozavr növü kəşf edilib



Argentinada ön ayaqları qısa olan yeni bir ətyeyən dinozavr növü kəşf edilib.

Beynəlxalq araşdırmaçı qrupun tədqiqatına görə, tiranozorlarla yaxın qohum olmayan və "Gualicho Shinya" adlanan yeni növün uzunluğu 7.6 metr, çəkisi isə təxminən bir tondur. Yeni növün 90 milyon il əvvəl Patagoniyanın şimalında yaşadığı, tiranozorlar kimi ön ayaqları qısa, arxa ayaqları uzun bir dinozavr növü olduğu bildirilir.

Tədqiqatçılardan Peter Makoviç "Gualicho Shinya"ni "mozaika dinozavr növü" kimi xarakterizə edib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# İdman sağlamlıqdır

## Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin üzvləri arasında üzgüçülük yarışı

*Bu günlərdə Müdafiə Nazirliyinə məxsus Goradil İstirahət Evinin müasir hovuzunda üzgüçülük üzrə komitə üzvləri arasında yarış keçirildi. Yarışa 40-dək kişi və qadınlardan ibarət idman həvəskarı qatılmışdı.*



Həvəskar idmançılar üç qrupda mübarizə apardılar. Onlar Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin mükafatları uğrunda öz bacarıqlarını nümayiş etdirdilər. Daha hazırlıqlılar hovuzda finişə hamıdan tez çatdılar və mükafatalayiq yerləri tutdular.

- Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi üzvləri arasında üzgüçülük yarışı, əslində, Silahlı Qüvvələr Günü ərəfəsində keçirilməli idi, - Abiyat Ağadadaşova bizimlə söhbətində bildirdi. - Ancaq aprel hadisələrindən sonra bütün cəbhə boyu təmas xəttində Vətənimizin keşiyini çəkən və döyüşlərdə fərqlənmiş zabit və əsgərlərimizlə görüşlərə getdik. Onlarla ünsiyyətdə olduq, onlara mənəvi dəstək verdik. Hesab edirəm ki, bu addım daha vacib idi.

Yarışa gəlincə, deməliyəm ki, bunu biz ənənəvi olaraq hər il keçiririk. Bu yarışda əsas məsələ idmançıların hovuzda göstərdiyi nəticələr deyil, önəmlisi Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin daha çox üzvünü yarışa cəlb etmək, idmanı, sağlamlığı təbliğ etmək idi. Adından da göründüyü kimi, həmkarlar gərək kollektivdəki ab-havaya görə digərlərinə nümunə olsunlar. Biz buna çalışırıq və hesab edirəm ki, nail oluruq.

Mükafatlandırma mərasimində üzgüçülük yarışının təkcə qalibləri mükafatlandırılmadı, həm də bütün iştirakçılara Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin rəhbərliyi tərəfindən hədiyyələr təqdim edildi.

Üzgüçülük yarışında qadınlar arasında birinci yeri Silahlı Qüvvələrin Baş Klinik Hospitalından Könül Rəhimova, ikinci yeri Abşeron rayonu MİH-in nümayəndəsi Aytən Fərəcova, üçüncü yeri isə "N" hərbi hissəsinin nümayəndəsi Səbinə Rəhimova tutdu.

Digər kateqoriyada müxtəlif çəkilərdə idmançılar arasında ən yaxşı nəticəni Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzindən Pyotr Kuvşinov və Mərkəzi Ordu İdman Klubundan Nikolay Trarov göstərdi. İkinci yerə C.Naxçıvanski adına Hərbi Liseydən Vladimir Mazanov, Mərkəzi Ordu İdman Klubundan Luka Leonidze, üçüncü yerə "N" hərbi hissəsindən Üzeyir Qafarov və Hərbi Dəniz Qüvvələrindən Pərviz Orucov layiq görüldülər.

Qaliblərə fəxri fərman və pul mükafatları təqdim edildi. Bundan əlavə, Goradil İstirahət Evinin iki əməkdaşı yarışın yüksək səviyyədə təşkilinə görə komitə rəhbərliyi tərəfindən mükafatlandırıldı.

- Həmkarlarımız arasında hər il planlı şəkildə müxtəlif yarışlar keçirilir, - Müdafiə Nazirliyi Abşeron rayonu Mənzil İstismar Hissəsinin həmkarlar təşkilatının sədri Aydın Əliyev deyir. - Mini futbol, voleybol, üzgüçülük kimi yarışlar, əslində, sağlamlığın möhkəmləndirilməsinə xidmət edən idman növləridir. Birləşmiş Həmkarlar İttifaqı Komitəsi bu yarışları yüksək səviyyədə təşkil edir. İnsanlar tədbirlərə həvəslə qoşulur, fəal iştirak edirlər. Həm də bu yarışlarda onlar bir-birini daha yaxından tanıyır, daha da mehribanlaşırlar. Məhz belə tədbirlərin sayəsində bizim həmkarların neçə-neçə üzvü arsında sıx dostluq əlaqələri yaranıb. Dostluq, mehribanlıq olan yerdə isə iş də yaxşı gedir, uğur da əldə edilir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasına kursantların qəbulu üçün müsabiqə elan olunur

*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi təhsil sahəsində bağlanmış müqaviləyə əsasən, 2016-2017-ci tədris ilində Müdafiə Nazirliyinin xətti ilə Gülhanə Hərbi Tibb Akademiyasının Ali Tibb Fakültəsinə kursantların qəbulu üçün müsabiqə elan olunur.*

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) AZƏRTAC-a bildiriblər ki, müsabiqədə bu il mülki ali məktəblərin IV ixtisas qrupu üzrə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış, 19 yaşınadək olan oğlan abituriyentlər iştirak edə bilərlər. Müsabiqə əsasında 20 nəfərin siyahısı müəyyənləşdiriləcək seçim üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinə təqdim olunacaq. Seçim zamanı uğur qazanmış 10 nəfər namizədin Gülhanə Hərbi Tibb Akademiyasına təhsil almağa göndərilməsi planlaşdırılır.

Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasının Ali Tibb Fakültəsində təhsil müddəti altı ildir. Kursantlar təhsil müddətində dövlət təminatında olurlar.

Birinci kursda kursantlar hərbi and içir və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları sırasına daxil edilir. Fakültədən xaric edilən kursantlar geri qaytarılır və qanunvericilikdə nəzərdə tutulmuş qaydada müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Müsabiqədə iştirak etmək istəyənlər iyulun 27-dək TQDK-ya (ünvan: Bakı şəhəri, Yasamal rayonu, Mikayıl Müşfiq küçəsi, 1m) müraciət etməlidirlər.

# Hərbi yeniliklər, ənənələr



### "Triumf" S-400 zenit-raket sistemi

"Almaz-Antey" Konserninin mətbuat xidmətindən verilən məlumata görə, bu il Rusiya Hava Kosmik Qüvvələrinin tərkibinə beş ədəd S-400 "Triumf" zenit-raket sistemi daxil ediləcək. "2020-ci il dövlət sifarişi" əsasında onların üç müqavilə üzrə qoşunların tərkibinə verilməsi həyata keçirilir. Hər bir komplektin daxilinə komanda məntəqəsi və iki raket divizionu daxildir. Veriləcək texnikanın ümumi sayı 680 ədəd olacaq. Müəssisədə yeni raket komplekslərinin, o cümlədən S-400-lərin sayının sürətlə artmasını qeyd edirlər. Bu da silahların komplekt şəkildə qoyuluşunun həyata keçirilməsinə imkan verəcək.

Sınaq nəticələrinə görə, "Triumf" bir raket vasitəsilə saniyədə 2800 metr sürətlə uçan hədəfi məhv etməli, digər raketlə isə 56 kilometrlik hündürlükdə uçan hədəfi ələ keçirməli idi. S-400 raket sisteminin istehsalına gəldikdə isə onlar 400 kilometrlik məsafədə olan hava obyektlərini məhv edə, eyni vaxtda 36 hədəfi vura, 72 ədəd raketi isə hədəfə tərəf tuşlaya bilər. "Triumf" havaəleyhinə və qeyri-strateji raketəleyhinə müdafiə məsələlərini də həll etməyə qadirdir.

Müdafiə Nazirliyi S-400 sistemindən dövlət hakimiyyət orqanlarını, baş qərargahı, iri elmi və istehsal komplekslərini hava hücumu vasitələrindən qorumaq üçün istifadə edir.

Plana görə, yaxın vaxtlarda Rusiyanın mərkəzi sənaye rayonlarını 12 ədəd S-400 kompleksi qoruyacaq. Hazırda zenit-raket kompleksləri Kamçatkada, Sankt-Peterburqda döyüş növbəsi çəkirlər.

### Şəhər tankı yaradılıb



Bu yaxınlarda Qazaxıstanda KADEX-2016 silah sərgisində "Uralvaqonzavod" şəhərdə döyüşlər aparmaq üçün T-72 tankının yeni modelini təqdim edib. Başqalarından fərqli olaraq şəhər tankı küçələrdə toplanmış tör-töküntüləri yığmaq üçün buldozer bıçağı, radioidarəolunan fuqasları məhv etmək üçün elektron və dairəvi dinamik mühafizə sistemi olması ilə fərqlənir. Döyüş maşınının təhlükəsizliyini təmin etmək üçün zirehli qüllə quraşdırılıb. Qüllənin arxa tərəfində isə radioelektron susdurma antenası yerləşdirilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 430
Nüsxə 4650